***Bu Qələbə bizim … əyilməz ruhumuzu göstərdi. Göstərdi ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmaq fikrində deyildi və bütün xalqımız, lap balaca uşaqlar, yaşlı insanlar, o torpaqları tərk edənlər, qayıtmaq arzusunda olanlar, o torpaqlarda heç vaxt olmayan, amma o bölgələrdən olan gənc nəslin nümayəndələri bir arzu ilə, biz hamımız bir arzu ilə yaşamışıq və bu arzunu həyata keçirmişik.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Qələbənin təməlində xalqın sarsılmaz inamı dayanır



***Ölkəmizə və xalqımıza son iki-üç əsrin ən möhtəşəm qələbəsini bəxş etmiş 44 günlük Vətən müharibəsinin dərsləri, ordunun Ali Baş Komandan tərəfindən peşəkarlıqla idarə edilməsi, xalq – iqtidar birliyi, bütün məqsədlərin qələbəyə köklənməsi barədə qələmə almaq istədiyim fikirləri əsaslandırmaq üçün bəzi mənbələrə növbəti dəfə nəzər saldım.***

Azərbaycan Respublikası Prezidenti Kitabxanasının elektron resurslarına müraciət edərkən rastlaşdığım materiallardan ikisi diqqətimi xüsusilə cəlb etdi. Birincisi məğlub ölkə barədədir: “Ermənistanın məğlubiyyətinin çoxsaylı səbəbləri olsa da, ən birinci qeyd edilməli fakt onların işğalçı olmasıdır. Torpaqları işğal edilmiş ölkənin nə zamansa qalib gələcəyi tamamilə gözlənilən idi. İkincisi, ermənilərin müstəqillik illərində heç zaman lideri olmayıb. Onları son otuz ildə müharibə caniləri və quldurlar idarə ediblər. Üçüncüsü, işğalçı ölkədə heç zaman xalq-iqtidar birliyi olmayıb. Xalqı bir neçə klan müxtəlif hissələrə bölüb. Dördüncüsü, bədnam məğlubiyyətin əsas səbəblərindən biri məhz faşist təxəyyüllü insanların monoetnik ölkə yaratması idi”.

İndi isə ikinci materiala diqqət yetirək: Milli Məclisin deputatı Mixail Zabelin yazır: “Azərbaycan xalqı qalib gəldi. Qarabağ Azərbaycana qaytarıldı, ədalət bərpa olundu. Bəs Vətən müharibəsində qələbəmizin sirri nədədir? İlk növbədə, Ali Baş Komandanımızın hərtərəfli düşünülmüş hərbi-siyasi strategiyasında, ordumuzun yüksək peşəkarlığında və əlbəttə, xalqımızın birliyində. Müxtəlif millətlərdən olan Azərbaycan vətəndaşları, o cümlədən ruslar Prezidentimiz İlham Heydər oğlu Əliyevə ürəkdən inanır və ona dərin hörmət bəsləyirlər, respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinə səmimi minnətdardırlar. Daha bir vacib məqam odur ki, onlar öz ölkələrinə və səmimi, xeyirxah, həssas, yüksək dərəcədə multikultural və tolerant, başqa millətə və başqa dinə mənsub olan insanlara hörmətlə yanaşan xalqına görə fəxr edirlər”.

*(ardı 4-cü səhifədə)*

# Qələbənin təməlində xalqın sarsılmaz inamı dayanır

*(əvvəli 1-ci səhifədə)*

Fərq göz qabağındadır. Mixail Zabelinin söylədiyi faktlar Azərbaycanın şanlı qələbəsini təmin etdi, ekspert Rasim Musabəyovun qələmə aldığı Ermənistan həqiqətləri isə işğalçı ölkənin diz çökməsinə, ordunun darmadağın edilməsinə, dövlət başçısının kapitulyasiya aktını imzalamasına səbəb oldu. Zaman sübut etdi ki, XXI əsrdə bir ölkənin öz qonşusunun ərazilərini işğalda saxlaması, separatçı xalqın öz qonşularına qarşı terror və təxribatlar törətməsi, sülhün və əməkdaşlığın qarşısında maneəyə çevrilməsi əbədi ola bilməz.

Elə dövlət başçımız da son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarında deyirdi ki, heç vaxt Azərbaycan xalqı bu işğalla barışmayacaq. Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli torpaqlarında ikinci erməni dövləti yaradılsın. Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müharibədən əvvəl müxtəlif çıxışlarda, müsahibələrdə deyirdi ki, bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Prezident həmişə və hər yerdə qətiyyətli idi: "Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik. Çünki yarımçıq razılaşma bizim xalqımızın maraqlarına cavab vermirdi, tarixi ədalətə cavab vermirdi. Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi. Biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq".

Öz xalqına, ordusuna və dövlətinin iqtisadi qüdrətinə arxalanan Azərbaycan Prezidenti deyir ki, Prezident seçkilərindən sonra mən ərazi bütövlüyümüzün bərpasını qarşıya birinci dərəcəli vəzifə kimi qoymuşdum və biz buna nail olduq. Eyni zamanda, siyasi, iqtisadi, sosial və başqa sahələrdə, o cümlədən xoşagəlməz hallara qarşı mübarizədə də qarşımıza açıq-aydın hədəflər qoyulurdu: "Biz reallıqları yaradan ölkəyik. Bundan əvvəlki dövrlərdə də bizim təşəbbüslərimizlə reallaşan bir çox layihələr bölgəyə yenilik gətirdi, əməkdaşlığın yeni formatlarını şərtləndirdi. Bizim uğurlu enerji siyasətimiz, nəqliyyat siyasətimiz nəinki enerji və nəqliyyat dəhlizlərinin yaranmasına gətirib çıxardı, eyni zamanda, bölgədə və geniş mənada Avrasiya məkanında yeni əməkdaşlıq formatlarını yaratdı. Bu gün bu layihələr ətrafında birləşən və bu layihələri bizimlə bərabər icra edən ölkələrin sayı artmaqdadır".

Bəli, bütün işləri ardıcıllıqla yerinə yetirən, nəyin nə zaman reallaşdırılacağını yaxşı bilən Prezident İlham Əliyev son 18 ildə həm siyasi, həm də iqtisadi sahədə dayanıqlı inkişafı təmin etdi, beynəlxalq aləmdə Azərbaycanı çox böyük nüfuza və hörmətə malik olan ölkəyə çevirdi və əsas məsələmizin həllinə – ərazi bütövlüyümüzün bərpasınına nail oldu.

Biz dəfələrlə yazmışıq ki, 2003-cü ildən bəri xalqın bütün sevinclərini Prezident İlham Əliyevin uğurlu siyasəti təmin edib, onun siyasi uğurları isə həmişə xalqın dəstəyi ilə ərsəyə gəlib. Dövlət başçımızın özü isə bu məsələni bir az da dəqiqləşdirərək deyir ki, gənc nəsil yetişdi, Vətənə sevgi, düşmənə nifrət hissi ilə yetişdi və bu gənc nəsil torpaqlarımızı işğalçılardan azad etdi. Mən demişəm ki, torpaqlarımızın azad edilməsində bütün nəsillərin nümayəndələri uğurlu fəaliyyət göstərib, ancaq döyüşdə iştirak edənlərin mütləq əksəriyyəti 2003-cü ildə mən hakimiyyətə gələndə uşaq olan insanlardır. Onlar yetişdi, onlar vətənpərvərlik və fədakarlıq göstərərək canlarından keçdilər, şəhid oldular, qazi oldular, qəhrəmanlıq göstərdilər və tarixi ədaləti bərpa etdilər.

Hamının yadındadır. Şuşanın düşmən işğalından azad edildiyi gün – 2020-ci il noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyabanında olublar. Dövlət başçımız orada demişdir ki, bu gün ölkə daxilindəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bizə əlavə güc verdi. İmkan vermədi ki, bəzi mənfur xarici dairələr öz çirkin planlarını Azərbaycanda həyata keçirsinlər. Halbuki belə planlar və cəhdlər var idi: "Biz siyasi iradə göstərərək, birlik göstərərək bu cəhdləri dəf etdik, xalq olaraq, millət olaraq öz qürurumuzu müdafiə etdik, öz müstəqil seçimimizi müdafiə etdik və sübut etdik ki, heç kim bizim işimizə qarışmasın və qarışa bilməz. Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Bu illər ərzində bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın... Siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi".

Bəli, bu gün Azərbaycan xalq-iqtidar birliyinin, daxili sabitliyin və multikulturalizmin əsas mərkəzlərindən biri kimi bütün dünyada nümunə göstərilir. İnanırıq ki, bu dəyərlər bizim növbəti qələbələrimizə də zəmin yaradacaq. Çünki bizim qarşımızda hələ çox böyük planlar, –işğaldan azad edilmiş ərazilərin bərpası kimi möhtəşəm vəzifələr dayanır.

**_İttifaq MİRZƏBƏYLİ,_**
**_"Xalq qəzeti"_**

Xalq qəzeti.- 2021.- 14 sentyabr.- S.1;4.